**Ayatullah Şeyx Cəfər Sübhani**

# MƏNFİ VƏ MÜSBƏT MİLLƏTÇİLİK

| | |
|---|---|
| **Kitabın adı:** | Müsbət və mənfi müllətçilik |
| **Müəllif:** | Ustad Cəfər Sübhani |
| **Nəşr edən:** | Azərbaycanın Qumdakı mədəniyyət ocağı |
| **Çap tarixi:** | 1371/yay |
| **Çap və litogirafiya:** | Əlhadi mətbəsi |
| **Tiraj:** | 15000 |

ÇAP HÜQUQU QORUNUR

## MÜQƏDDİMƏ

Adlı filosof, böyük arif, məşhur islamşünas, bacarıqlı təfsirçi, islamın və müələmanların fəxri rəhmətlik Əllamə Seyyid Mühəmməd Hüseyn Təbətabai 1281-ci hicri şəmsi ildə Təbriz şəhərində alim bir ailədə dünyaya göz açdı. O, beş yaşında ikən anası və doqquz yaşında ikən atası vəfat etmişdir.

Atasının vəfatından sonra altı il ibtidai təhsil almağa və Quran öyrənməyə məşğul olmuşdur.

1304-cü ilə qədər sərf, nəhv, bəyan, fiqh, üsul, məntiq, fəlsəfə və kəlam elmləri ilə məşğul olmuşdur. 1304-cü ildə öz təhsilini təkmilləşdirmək üçün Nəcəf şəhərinin dini hövzəsinə getmişdir.

Orada altı il rəhmətlik Ayatullah şeyx Mühəmməd Hüseyn İsfahaninin üsul dərsində və 8 il rəhmətlik Ayatullah Naininin fiqh və üsul elmləri üzrə ictihadi dərslərində iştirak etmişdir.

Bir müddət də Ayatullah Hüccət Kühkəmərinin rical dərsində hazır olmuşdur. Altı il də məşhur filosof və həkim rəhmətlik Ayatullah Seyyid Mühəmməd Hüseyn Badkubeinin qarşısında bir şagird kimi diz çökürüb fəlsəfə və irfan sahəsində özünü uca zirvələrə çatdırmışdır.

Sonralar, o filosofun göstərişi ilə bir müddət məşhur riyaziyyat alimi Ayatullah Seyid Əbulqasim Xansaridən riyaziyyat elmini öyrənmişdir.

(Kamil bir dövrə hesab, səth və fəza üzrə həndəsə - stereometriya və planimetriya – və cəbr elmini öyrənməyə məşğul olmuşdur.)

O, sonra Təbrizə qayıtmış və oradan Qum şəhərinə köçmüşdür. Qumda təfsir, kəlam, fəlsəfə, fiqh, üsul və riyaziyyat elmləri sahəsində bir çox dəyərli kitab yazmış və Mütəhhəri kimi şagirdlər beçərmişdir.

Əllamə 1370 ildə ədəbiyyətə qovuşdu və Həzrəti Məsumə (s.ə)-ın məzari şərifinin kənarında dəfn edilmişdir.

1370-ci ildə Bakı universiteti, Əllamə Təbətabainin anadan olmasının 70 illiyi münasibətinə bir konfrans tərtib etdi. Bu konfransda bir çox İran alimləri Azərbaycan elmlər akademiyasının dəvəti ilə iştirak etmişdilər.

Tehrandan Əllamə Təbətabai adına universitetin rəisi cənab D. Xəlic, Tehran universitetinin ustadı D.Dinani, Təbriz əhalisinin parlament nümayəndəsi cənab höccətül-islam vəl-müslimin Herisi, və Tehran universitetinin fəlsəfə ustadı xanım Tuba Kermani, müxtəlif məqamlar zimnində Əllamə Təbətabainin şəxsiyyəti barədə çıxış etdilər.

Bu konfransda cənab höccətül-islam Seyyid Əliəkbər Ocaqnejat Qum şəhərinin dini Hövzəsinin böyük ustadlarından biri ayətullah Cəfər Sübhaninin «Əlamənin baxışında müsbət və mənfi nasionalizm» adlı məqaləsini oxudu.

Bu məqalədə toxunulan məsələlərin əhəmiyyətli möhtəvalı və qısa bir şəkildə formalaşmasına görə Cənubi Azərbaycan şəriət tələbələrinin mədəniyyət ocağı bu məqaləni azərbaycan dilində tərcüməsini və çap edilməsini lazım bilmişdir.

İndi elə həmin məqaləni rəhmətlik Əllamə Təbətabainin iftixarlı həyatından bir qısacıq müqəddimə artıraraq çap etmiş və hörmətli Azərbaycanlı bacı və qardaşların ixtiyarında qoymuşdur.

Mütəal Allahdan ümid edirik ki, bütün dünya müsəlmanlarına islamın insanpərvər qanunlarının və böyük əzəmətli Quran kitabının nurani əhkamlarından itaət etməklə izzət, böyüklük və birlik versin.

**Cənubi Azərbaycan şəriət**
**tələbələrinin mədəniyyət ocağı**
**18. 5. 1371.**

## Bimillahir rəhmanir rəhim

Əllamə Təbətabainin xatirəsini əzizləmək üçün bu elmi yığıncaqda toplanan hörmətli iştirakçılara salam edərək, o böyük insanın fəlsəfi görüşlərindən birini bəyan etməzdən əvvəl «Badkubə» sözünü eşitməklə yadıma düşən şəxsiyyətlədən söz açmaq istərdim.

Bu seminar elə bir yerdə qurulmuşdur ki, həmişə və xüsusilə bizim və dünyanın bu mərkəzlə əlaqəsi kəsilmədən, son yüz ildə öz ətəyində şəhamət və igidlikdə ad qazanan və bilikli şəxsiyyətlər sayılan insanlar bəsləmişdir.

Onlar həmişə mənəvi yaşayışı hər şeyə üstünlük verirdilər. Mən bu yadıma düşən şəxsiyyətlərin üçündən danışmaq istəyirəm.

Bu şəxsiyyət:

### 1- Hacı Seyyid Hüseyn Badkubei:

Əllamə Təbətabainin böyük ustadı rəhmətlik Seyyid Hüseyn Badkubei (1884-1938) müqəddəmat deyilən ilk dini təhsilini öz doğma yurdunda alıb. Sonra əqli-fəlsəfi və riyazi elmlərini təkmilləşdirmək üçün Tehran şəhərinə getdi.

Bu sahədə mükəmməl təhsil aldıqdan sonra Nəcəfi-Əşrəf şəhərinə gedib ordakı ustadlardan fiqh dərsi aldı və nəhayət Nəcəfi-Əşrəfin elmiyyə hövzəsinin adlı-sanlı ustadlarından olaraq böyük elmi simalar yetişdirdi.

Ondan fəsəfə və riyaziyyat dərsləri alan Əllamə Təbətabai Hacı Seyyid Hüseyn Badkubeinin yetişdirdiyi simalardan biridir.

Rəhmətlik Əllamə Təbətabai həmişə onun riyazi və fəlsəfi düşüncəsini təhsin edib buyurardı: «O, həndəsə sübutları ilə

bucağı bölə bilmişdir. Belə bir iş indiyədək çox az görülmüşdür».

**2- Şeyx Əbdülğəni Badkubei:**

İkinci ad apardığım şəxsiyyət, islamı müdafiə etmək təqsiri ilə, illər boyunca kommunistlərin zindanına düşüb nəhayət 1941-ci ilində fədakarlığı ilə ömrünü başa çatdıran bir mübarizdir.

Bu böyük şəxsiyyət həmin yerin böyük elmi və dini mərcei olarkən fəxr etməli bir insan idi.

Rəhmətlik Əllamə Əmini özünün «Şühədaül-fəzilə» kitabında onun yaşayışı xüsusunda söhbət aparmış və onun mübarizəsini alqışlamışdır.

**3- Seyyid Mühəmməd Badkubei:**

Burada xatırladığım üçüncü şəxsiyyət öz ustadım rəhmətlik Seyyid Mühəmməd Badkubeidir.

O məni kəlam elmi ilə tanış edən birinci alimdir. 1943-cü ildə rəhmətlik Xacənin yazdığı və Əllamə Hillinin izah etidiyi «Kəşfül-fəvaid» kitabını, o böyük insanın yanında dərs aldım. Bu ulu şəxsiyyət kommunistlər inqilabı zamanında özünü həbsdən qurtararaq öncə Ərdəbili sonra isə Təbrizi özünə yaşayış şəhəri seçdi.

O rəhmətlik molla Kazım Xorasaninin şagirdlərindən olmuşdur o, davamlı olaraq öz ömrü boyunda gözəl xitabələri ilə xalq kütlələrinə yol göstərmiş və özünün gecə ibadətləri ilə məhşur olmuşdur.

Mən şəxsiyyətləri yad etdim, lakin elə şəxsiyyətlər də vardır ki, bu yerlərin tarixçiləri onların yaşayışları və elmi əsərləri haqqında araşdırma aparmalıdırlar.

Bu, onu göstərməkdədir ki, bu məntəqənin əhalisi islam mədəniyyyətinin mirasçısı və böyük islam alimlərinin tərbiyə olmuşlarıdırlar.

Lakin təəsüflə müasir nəslin bu xüsusda məlumatı azdır.

İndisə bu ön sözün təqdimindən sonra Əllamə Təbətabainin «Təfsirl-mizanında» və başqa kitablarında bəhsə qoyduğu mövzuların biri üzərində danışmaq istəyirəm. Mən mövzunu açmaq üçün əvvəlcə onun sözlərinin ruhunu sadə qəlblərə etməklə sonra mövzunu başlayıram.

# MƏNFİ VƏ MÜSBƏT MİLLƏTÇİLİK

Nasionalizm və millətçilik məsələsi iki son əsrlərdə dillərə düşümüş məsələlərdəndir və onun xüsusunda bir çox kitablar, məqalələr yazılıb nitq söylənmişdir.

Burada məqsədimiz Əllamə Təbətabainin baxışını İslam və Quran nəzərini bəyan etməkdir. Nasionalizm həm müsbət və yaradıcı və həm də pozucu və viran edici ola bilən iki ağızlı bir qılıncdır.

İslam millətlərinin ayrılığını istəyən millətçiliyin mənfi yönlərindən bəhrələnmiş onunla bir milyard əhalisi olan müsəlman ölkələri bir-birindən ayırmışdır və xalqlar arasında «panərəbizm», «pantürküzm» və «paniranizm» tayfaçılığını dirçəldərək bu yol ilə islam və iman vasitəsilə birləşən müxtəlif tayfaları bir-birindən ayırmaq istədilər.

Biz bu çıxışımızda islamın təsdiq etdiyi nasionalizmin müsbət cəhətlərinə işarə edirik. Allah qoysa bu çıxış faydalı və səmərəli olacaqdır.

Nasionalizm haqla batilin qarışığından yaranmışdır. Onun zəif və güclü nöqtələri vardır: Yaradıcı və pozucu, lakin islam ölkələrində onun pozuculuq yönü, güclü yönlərindən çox olmuşdur. Qərbin onu islam millətləri arasında dirçəltməyə çalışmasının səbəbi budur ki, onun pozuculuq yönünün vasitəsilə islam birliyini pozmaq, müsəlmanlar arasında ayrılıq salmaq iki qardaş xalqı bir-birinə düşmən və rəqib etmək istəyir, və onların müsəlman yerinə müxtəlif millətlərə ayrılmalarını arzulayır.

İndi həqiqətin üstündən o örtük gütürülsün deyə bir neçə mövzunu xatırladırıq.

Siyasi məsləklər yazıçılarının nasionalizmdən etdiyi təfsirdə belə cümlələr vardır:

1 - İnsanın ana torpağa və yurda məhəbbəti;

2 - İçində böyüdüyü xalqa qarşı sevgisi;

3 - Öz xalqının mədəni və tarixi irsi və yadigarlarını qorumaq;

4 - Özünə hakim olmaq və istiqlaliyyətini əldə etməyə rəğbət.

Bu kimi anlayışları nasionalizm ilə əlaqələndirmək olmaz, çünki belə bir duyğular fitri olaraq insanda vardır.

İnsan müəyyən bir el-oba və torpaqda və bir xalq arasında böyüdükdə, onlara və onların mədəni və tarixi əsərlərinə qarşı sevgisi təbii məsələ olacaqdır.

Hər insan bu sevgini özündə hiss edir. Necə ki, köləlik zəncirini qırmaq və azad olmaq isə bir fitri işdir.

Bu müsbət nöqtələri nasionalizm məktəbinin hesabına qoymamalıyıq. Bu məktəb olmasada onları əldə etmək olar.

İslamın əziz Peyğəmbəri (s) Məkkədən Mədinəyə hicrət edərkən yolun yarısında doğma yurdu Məkkə yadına düşərək, özündə qayıtmaq rəğbəti hiss etdi. Allahın vəhyi nazil olaraq ona vəd etdi:

إِنَّ الَّذِي فَرَضَ عَلَيْكَ الْقُرْآنَ لَرَادُّكَ إِلَىٰ مَعَادٍ ۚ قُلْ رَبِّي أَعْلَمُ مَنْ جَاءَ بِالْهُدَىٰ وَمَنْ هُوَ فِي ضَلَالٍ مُبِينٍ

***«Quranı (oxumağı və təbliğ etməyi, yaxud hökmlərinə əməl etməyi) sənə vacib buyuran (Allah) qayıdacağın yerə (hicrət edərək çıxdığın Məkkəyə) səni yenə də qaytaracaqdır».***[1]

Allahın vədəsi 7-ci hicri ilində həqiqətə çevrildi.

8-ci hicri ilində Məkkə, müsəlmanların əlinə keçərkən həmin Allah Rəsulu (s), öz ana yurduna daxil olaraq ona qarşı məhəbbətini göstərib buyurdu: **«Ey Məkkə şəhəri mən səni**

---

[1] «Qəsas» surəsi, ayə 85.

**sevirəm. Əgər burdan çıxmağa məni məcbur etməsəydilər heç zaman səni tərk etməzdim».**

Nasionalizmin örnəklərindən biri insanı öz kökləri sayılan ata-babalar və tayfalara mənsub etməkdir.

Misla üçün, deyər, mən filan tayfadanam, yaxud özünü müəyyn bir o mənsub bilər, belə bir iş islamda yasaq olunmamışdır. Lakin insanın fəxr etməsi üçün deyil, insanın hüviyyət və kimliyini tanımaq vasitəsi olması şərtilə onu təsiq edir.

Quran bu həqiqəti bir ayədə bəyan etmişdir.

وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا

***«Bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq».***[1]

Yəni bir qəbiləyə mənsub olmaq fəxr etmək vasitəsi eyil bir şəxsin başqasından tanınması vasitəsidir.

Çürük sümüklərə mənsub olmaq fəxr etmək vasitəsi deyil əslində təqvaya mənsub olmaq fəxr edilməlidir. Hər insan onu qazanmalı və onunla özünə bəzək verməlidir.

## NASİONALİZMİN POZĞUNÇULUĞU

Nasionalizmin müsbət yönləri irəlidə deyilənlər idi. Lakin diqqət etmək lazımdır ki, bu siyasi məktəbin islam və yaxud Asiya və Afrika ölkələrində ortaya atılmasından məqsəd onun pozucu yönüdür.

Bu isə alimlərə aydındır. İndi onların bəzilərinə işarə edirik:

---

[1] «Hücurat» surəsi, ayə 13.

**1- İslam birliyini ləğv etmək.**

İslam baxımından dil, soy, qan, torpaq kimi bir millətin qurulmasına səbəb olan amillər və faktorlar arasında yalnız «fikir», «dil» inamliyi vahid bir milləti yarada bilib onları bir-birinin xeyr və şərrindən ortaq edə bilər və dil, soy, qan və torpaq baxımından fərqli olan tayfalar vahid «ümmət» adı verərək deyər:

إِنَّ هَٰذِهِ أُمَّتُكُمْ أُمَّةً وَاحِدَةً وَأَنَا رَبُّكُمْ فَاعْبُدُونِ

***«(Ey insanlar!) Həqiqətən, bu (tövhid dini olan islam) tək bir din olaraq sizin dininizdir. Mən də sizin Rəbbinizəm. Buna görə də yalnız Mənə ibadət edin!»***[1]

Və yaxud buyurur:

وَإِنَّ هَٰذِهِ أُمَّتُكُمْ أُمَّةً وَاحِدَةً وَأَنَا رَبُّكُمْ فَاتَّقُونِ

***«Bu (tövhid dini islam) tək bir din olaraq sizin dininizdir, Mən də sizin Rəbbinizəm. Məndən (əzabımdan) qorxun!»***[2]

Və yaxud hamını qardaş və bərabər sanaraq buyurur:

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ

***«Həqiqətən, möminlər (dində) qardaşdırlar».***[3]

Bir gün Səlman Peyğəmbərin məscidində əyləşmişdi, əshabdan bəzisi əsl-nəsəbdən danışır, hər kəs öz əsl-nəsəbini tərif edirdi. Səlmandan da əsl-nəsəbi haqda soruşdular. İslam məktəbində tərbiyə görmüş Səlman dedi:

---

[1] «Ənbiya» surəsi, ayə 92.
[2] «Möminun» surəsi, ayə 52.
[3] «Hücurat» surəsi, ayə 10.

فقال: انا سلمان بن عبداللّه، كنت ضالًا فهدانى اللّه عزوجل بمحمد صلى الله عليه و آله و كنت عائلًا فاغنانى اللّه بمحمد صلى الله عليه و آله و كنت مملوكاً فاعتقنى اللّه بمحمد صلى الله عليه و آله، هذا نسبى و هذا حسبى

*«Mən Səlman Allahın bəndəsiyəm, əvvəllər azğın idim, Allah Mühəmmədin vasitəsilə məni doğru yola yönəltidi, yoxsuldum, Allah Mühəmmədin vasitəsilə məni ehtiyacsız etdi, qul idim Allah Mühəmmədin vasitəsilə məni azad etdi. Budur mənim əsl-nəsəbim».*

Bu halda Allah Rəsulu (s) məscidə daxil oldu, Səlman olduğu kimi məcaranı söylədi. Həzrət Qüreyş qəbiləsindən olan bu şəxslərə üzünü tutaraq buyurdu:

يا معشر قريش ان حسب الرجل دينه، مروئته خلقه و اصله عقله

**«Ey Qüreyş əhli! Hər kəsin nəsəbi onun dinidir, cömərdliyi onun xasiyyət və xarakteridir, kökü isə əqlidir».**[1]

İslam tarixində yazılmışdır ki, Ühüd döyüşündə müsəlmanlar arasında bir iranlı döyüşçü var idi, bu müsəlman iranlı düşmən əsgələrindən birinə zərbə endirərək qurur üzündən dedi: «İranlı bir gəncin bu zərbəsini al».

Həzrət Rəsuli-Əkrəm (s) onun başqalarının da təəssübünü alovlandıla bilən bu sözünə diqqət yetirərək ona buyurdu: **«Nə üçün mən bir ənsarlı gəncəm demədin?»**

Bu islamın və əziz İslam peyğəmbərinin (s) nəzəriyyəsidir. Halbuki nasionalizm əqidə birliyi yerinə, başqa faktorlarndan faydalanmaq istəyir. Bu «Vəhdətliyi» «Kəsrət» (çoxluğa) çevirmək istəyir.

Ərəb, əcəm, türk, fars və başqa müsəlman el tayfaların birliyini, söz və dilləri ixtilafa və ikiliyə çəkmək arzusundadır.

---

[1] «Rövzeyi-kafi» səh. 181.

Və nəhayət rəğəbət, düşmənçilik və nifaq toxumların bir vahid ümmətin arasına səpib, islam gücünü əzməklə bu xalqlar üzərində fövqəl-qüdrətlərin hakimiyyətini asanlaşdırmaq istəyir.

Bir xalqın mədəni və tarixi irsi və xəzinəsinə fəxr etməsi, əgər belə bir fəxrə layiqdirsə qınanılmaz, məsələ elə ortaya atılır ki, deyəsən bizim başqa dünya müsəlmanları ilə bağlılığımızı kəsmək istəyirlər.

Təkcə bununla da kifayətlənməyir.

Bizim xalqımızın islam tarixindən bu on dörd əsrdə əldə etdiyi iftixarları məhv edib millətçilik adı ilə bütün fikri, elmi, mədəni şərəflərimizi hərraca qoymaq istəyirlər.

Halbuki müsəlman xalqları bu on dörd əsrlik elmi, mədəni və siyasi islami əsərlərdən ayırmaq ilə, onların kimliklərini məhv edə bilməyəcəkdirlər.

Birinci dünya müharibəsindən sonra Amerikanın o vaxtkı prezidenti Vudro Vilson dünyada sülhün qorunması üçün on dörd maddələk və maddələrindən biri «milli istiqlal» olan elanını ortaya atmışdır.

Onun nətiçəsində Osmanlı imperiyası parçalanıb dağılaraq özü də müstəgil olan bir neçə kiçik ölkə şəklinə düşdü onun isə bədbəxtçilik, uğursuzluq və muzdur dövlətlərini qurulmasından və islam ölkələrində «israil» kimi haram toxumun əkilməsindən başqa bir səmərəsi olmadı.

### 2 – Tüğyançılıq ruhunu cücərtmək

Millətçilikdə tüğyançılıq ruhu bütünlüklə ya tamamilə cücərir və güclü dövlətlər ölkələrindən xaricdə yaşayan soydaş eyni irqli və eyni dilli xalqların torpağını öz torpaqlarına qatmaq istəyirlər, bununla da razılaşmayır tabeliklərindəki olan azlıq təşkil edən xalqları özlərində əritmək istəyirlər.

Nasionalizm Avropada imperializm və azlıq təşkil edən xalqlara qarşı zülm vasitəsi olurdu.

İrqçilik məsləklərini və əfsanələrini dirildir pozğunçuluqdan başqa bir nəticə verməyirdi nəhayətdə isə «nasizm» və «faşizm» diktatorluğunun meydana çıxmasına səbəb oldu.

Sözün qısası, nasionalizm müsbət və mənfi yönlərə malikdir. Onun insani və müsbət cəhətlərini alqışlayıb, mənfi və insanlığa zidd olan yönləri ilə mübarizə lazımdır.

Bir çox hallarda nasionalizm onun müsbət yönlərinə dayanaraq başlanır, lakin nəhayətdə onun mənfi və kobud yönlərinin dirçilməsi ilə nətiçələnir.

Vəssalamu əleykum və rəhmətullah və bərakatuh

**Qum din elmləri hövzəsi**
**Cəfər Sübhani Təbrizli**